*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 314-321*

https://doi.org/10.62837/2026.4.314

**ƏLIYEVA LƏTAFƏT ƏLIŞAH QIZI**
Bakı Dövlət Universitetinin
Filologiya fakültəsinin
"Azərbaycan dili və nitq mədəniyyəti"
kafedrasının dosenti, fill.ü.f.d.

# MİLLİ ÜNSİYYƏT TƏRZİMİZ

Ünsiyyət mədəniyyəti dedikdə, insanların bir-biri ilə danışarkən, fikir mübadiləsi apararkən, yazarkən və qeyri- verbal yolla münasibət qurarkən mədəni və düzgün davranış qaydalarına əməl etməsi nəzərdə tutulur. İnsanlararası münasibətlərin sağlam qurulması, qarşılıqlı hörmət və anlaşmanın təmin olunması məhz ünsiyyət mədəniyyətinin səviyyəsindən asılıdır.

Müasir dövrdə ünsiyyət mədəniyyəti cəmiyyətin inkişafı, insanların qarşılıqlı münasibətləri və əməkdaşlığın səmərəliliyi baxımından xüsusi əhəmiyyət kəsb edir. Qloballaşma, texnologiyaların sürətli inkişafı, sosial şəbəkələrin geniş yayılması, beynəlxalq əlaqələrin güclənməsi, müasirləşmə - bütün bunlar insanların gündəlik həyatında ünsiyyətin formalarını həm zənginləşdirmiş, həm də mürəkkəbləşdirmişdir. Ünsiyyət mədəniyyəti həm şəxsi, həm də ictimai həyat üçün vacibdir. Ünsiyyət mədəniyyəti insanı cəmiyyətə uyğunlaşdırır, onun şəxsi keyfiyyətlərini üzə çıxarır və ictimai münasibətlərin sağlam şəkildə formalaşmasına kömək edir. "Ünsiyyət qurmaq bacarığı bir mədəniyyətdir və bu, insanın yalnız danışıq qabiliyyəti ilə deyil, eyni zamanda etik, sosial və emosional davranış qaydaları ilə ölçülür"(3,s. 304).

Ünsiyyət mədəniyyətinin əsas xüsusiyyətləri bunlardır:

1. Düzgün nitq mədəniyyəti(ədəbi dil qaydalarına riayət etmək, söz ehtiyatından düzgün və yerində istifadə etmək, səliqəli, anlaşıqlı və aydın ifadə).
2. Etik davranış qaydaları(hörmət, nəzakət və səmimiyyət, qarşı tərəfin fikrinə qulaq asmaq və sözünü kəsməmək, salamlaşma, təşəkkür və üzr istəmə mədəniyyəti, dinləmə mədəniyyəti).
3. Qeyri- verbal ünsiyyət (mimika, jestlər, baxış və səs tonunun uyğunluğu, geyim və zahiri görünüşün ünsiyyətə təsiri).
4. Empatiya və dözümlülük, emosional mədəniyyət(qarşı tərəfin hisslərini anlamaq və nəzərə almaq, fikrinə hörmətlə yanaşmaq, aqressiyadan, kobud ifadələrdən uzaq olmaq).
5. Rəqəmsal ünsiyyət mədəniyyəti (sosial şəbəkələrdə etik davranış, şayiə, təhqir və nifrət nitqindən çəkinmək, yazılı ünsiyyətdə aydın və qısa ifadələrdən istifadə etmək).

Ünsiyyət mədəniyyətindən danışmazdan əvvəl mədəniyyət anlayışına nəzər salaq: Mədəniyyət insan dəyərinin əsas meyarıdır. Mədəniyyət özündə intellektual, maddi və mənəvi amilləri birləşdirən kreativ fəaliyyətin nəticəsidir. Çünki bütün mədəni dəyərlər insan yaradıcılığından doğur. Mədəni dəyərlər insan fəaliyyətini tənzimləyir, həm fərdi , həm də insanların qruplar halında fəaliyyətinin istiqamətini müəyyən edir. "Mədəni dəyərlər sisteminə intellektual, mənəvi, estetik, siyasi, etno milli, bədii, dini, hüquqi, ideoloji, maddi və digər dəyərlər aiddir. Mədəniyyət insanın ağlı, hissləri və fiziki əməyi ilə biliyə, nizama, inkişafa və rifaha doğru aparan yoldur. Hər bir ölkənin başlıca milli sərvəti onun xalqıdır. Bu sərvətin dəyəri mədəni insanların kəmiyyət və keyfiyyəti ilə müəyyən edilir. Yalnız yüksək mədəniyyətli insanlar güclü dövlətin dayağını və bəşəriyyətin inkişafının hərəkətverici qüvvəsini təşkil edərək, cəmiyyətin, həyatın qorunması və yaxşılaşdırılması uğrunda çalışırlar"(2,s.201). Mədəni insan formulu dedikdə bilik(elm və təhsil), bacarıq(bilik və təcrübə), mütəşəkkillik(nizam-intizama bağlılıq, müstəqillik, məsuliyyət, iradə və s.), mənəviyyat(humanizm, vicdan, ləyaqət, dürüstlük, həqiqətə bağlılıq, ədalət, xeyirxahlıq, inam, vətənpərvərlik və s.) nəzərdə tutulur.

Ünsiyyət mədəniyyəti birbaşa insan münasibətlərindən asılıdır. Münasibət ünsiyyətin keyfiyyətini müəyyən edir. Sağlam, hörmətə əsaslanan, səmimi münasibətlər mədəni ünsiyyət yaradır. Mədəni ünsiyyət isə münasibətləri daha da möhkəmləndirir. Ünsiyyət mədəniyyəti dəyərlərə əsaslanır. İnsan münasibətləri dəyərlər əsasında qurulursa, ünsiyyət mədəniyyəti isə bu münasibətin söz və davranışla ifadəsidir.

İnsan öz təbiəti etibarilə ictimai olduğundan onun tam xöşbəxtliyi ümumi maraq və qarşılıqlı fayda prinsipi ilə insanlarla münasibət qura bilməsi, insanlarla yola getməsi, onların xöşbəxtliyinə sevinməsidir. İnsanın digər insanlarla qarşılıqlı münasibətləri onun şəxsiyyəti, xarakteri, psixoloji xüsusiyyətləri əsasında qurulur. İnsan digər insanlar arasında yaşayır və işləyir və onlarla ünsiyyətdə olaraq sosial aləmi dərk edir. Nəsrəddin Tusinin "Əxlaqi-nasiri" əsərində deyilir: "Kamil və xoşbəxt adam o adamdır ki, sədaqətli həmkar tapmış olsun, özünə xeyirli işlərə onları da cəlb etsin, tək bacara bilmədiyi xoşbəxtliyi onların xoşbəxtliyi ilə ələ gətirsin, bütün ömrü boyu onların varlığı ilə fəxr edib ləzzət alsın"(4,s.78). İnsan başqalarının hiss və ehtiyaclarını nəzərə almasa, insanlar ondan uzaqlaşar, münasibətlər zəifləyər, yəni tənhalıq yaranar, əməkdaşlıq və ədalət yox olar. Bütün bunlar həm də ölçülü olmadır. Burada sağlam yanaşma- özünə qayğı və başqasına hörmət balansı olmalıdır. Məsələn, empatiya – insanın özünü başqasının yerinə qoyaraq onun emosiyalarını, düşüncələrini və vəziyyətini dərk etməsidir. Burada əsas məsələ başqasının yerində olmağın necə bir hiss olduğunu təsəvvür etmək, insanı anlamaq, onun emosiyalarını, düşüncələrini və vəziyyətini dərk etməkdir, fikrən özünü onun yerində təsəvvür etməkdir. Yəni eyni hadisə mənim də başıma gəlsəydi, mən nə

hiss edərdim, yaxud məni nə qorxudardı, nəyə ehtiyacım olardı və s. Məsələn, kimsə yıxılıbsa "Boş ver keçib gedər"cümləsi əvəzinə , "Sənin üçün çətin olduğunu hiss edirəm" demək daha uyğundur, çünki başqalarının emosional hisslərini qəbul ediriksə, o hisslərə uyğun sözlər seçmək lazımdır, belə ki, birinci cümlə təsəlli deyil, etinasızlıq ifadə edir.

İnsan empatiyanı bədən dili- təbəssüm, baxış, mimika, jestlər, duruş, toxunuş, geyim və s. ilə də göstərə bilər. Məsələn, təbəssüm – dostluq, sevinc, səmimiyyət rəmzidir, istehzalı, nifrətli və s. olduqda əks-təsir yaradır, o zaman qarşıdakı ürəyini açmaqdan, hisslərini bildirməkdən çəkinir; təbii, rəhimli, şəfqətli baxışlar etimadı, inamı ifadə edir, baxışlar yayındıqda isə vəziyyətin qarşıdakı üçün mənasız olduğu düşünülür; çiyinə toxunmaq dəstək mənasını verir. Geyim və xarici görünüş də sosial davranış və kommunikasiya vasitəsidir. Məsələn, yasda qara paltar geyinmək – "sənin dərdinə şərikəm"; toyda əl-əlvan geyinmək, bəzək əşyaları taxmaq – sənin qədər sevincliyəm mesajını verir. Səsin tonu da ünsiyyət mədəniyyətinin ən mühüm göstəricisidir. Nəzakətli və ölçülü, yumşaq və sakit ton qarşı tərəfə hörmət ifadə edir. Əksinə, sərt, yüksək və aqressiv ton ünsiyyətdə gərginlik yarada bilər. "İnsan münasibətlərinin əsas sirləri başqalarına nəzakət, diqqət göstərmək, yaxşı cəhətlərinə sevinməkdir. İnsana hər hansı nöqsanına görə neqativ qiymət və xarakteristika vermək lazım deyil. Çünki, bu insanlar arasında psixoloji sədd yaradır. Başqasını tərbiyə etməyə çalışmamaq lazımdır, çünki hər kəsin özü haqqında yaxşı insan kimi təsəvvürləri onu məzəmmətlərdən müdafiə edir, yəni özünəməxsusluq haqqına malikdir"(5,s.46). Yalnız mənəviyyat insanlar arasında etimad və anlaşma yaradır, insanın daxili kamilləşməsinə xidmət edir. Etiket qaydalarına formal olaraq riayət edən aşağı səviyyəli mədəni insanda, süni xeyirxahlıq arxasında çox zaman insanlara qarşı laqeydlik, şəxsiyyətə hörmətsizlik və ədəbsizlik durur. Yüksək mədəniyyətli insan öz davranışında zahiri qaydalara formal riayət etməyi deyil, ətrafdakı insanlar və cəmiyyət qarşısında öz vicdanı, həqiqi mənəvi məsuliyyət hissini rəhbər tutur. Deməli, yalnız mənəviyyatı zəngin olan insanların mədəniyyəti yüksək olur. Mənəviyyat ailədə formalaşır, məktəbdə və təhsil mühitində inkişaf edir, cəmiyyətin ümumi dəyərləri ilə möhkəmlənir. İnsanın xarakteri də anlaşıqlı ünsiyyət üçün vacib amildir. "Xarakter insanın daxili aləmini, onun daxili mədəniyyətini əks etdirir. Xasiyyət şəxsiyyətin tipik xüsusiyyətlərini aşkar edir. Xarakter insanların ünsiyyət prosesində təzahür olur. İnsanın xarakterini bilməklə, müəyyən şəraitlərdə onun əməllərini və davranışını qabaqcadan görmək və proqnozlaşdırmaq, deməli onu müəyyən dərəcədə idarə etmək olar"(6,s.138). Buna görə də insanda erkən yaşlarından pozitiv, alicənab xarakter formalaşdırmaq vacibdir. İlk növbədə, yaxşı xarakter ünsiyyətdə etibar yaradır, digər tərəfdən xarakter insanın ünsiyyət tərzinə təsir edir. Səbrli və anlayışlı insanlar qarşı tərəfi dinləməyi bacarlır, münaqişələri konstruktiv şəkildə həll edirlər. Əksinə, aqressiv və ya səbrsiz xarakter ünsiyyətdə problemlər yarada bilər. İnsan münasibətləri

mədəniyyəti öz konkret ifadəsini insanlar arasındakı ünsiyyət mədəniyyətində tapır. Ünsiyyət mədəniyyəti qarşılıqlı anlaşmaya nail olmağı nəzərdə tutur.

Ünsiyyətdə qarşılıqlı anlaşmanın çətinliyi çox zaman tərəflərin eyni bir faktları və hadisələri müxtəlif cür interpretasiya etməsidir. Buna səbəb intellekt səviyyəsinin müxtəlif olması, yəni fikir ayrılığı və müxtəlif baxışlardır. Qarşılıqlı anlaşma mədəniyyəti nəzakətli ünsiyyət üzərində qurulur. Ziddiyyətlərin həllinin ən yaxşı üsulu- onların real mahiyyətinin açıq , düzgün müzakirəsi, öz səhvlərini görmə və mərdcəsinə etiraf etməsidir. “Eşitdiyin və oxuduğun məlumatı analiz et, sübut varmı, mənbə nədir, məntiq varmı- bunları yoxla. Bu, səhv qərarların qarşısını alır”(1,s.84).

Müasir dövrdə ünsiyyətin çətinləşməsinin bir neçə səbəbi var. Bu səbəblər texnoloji, sosial, psixoloji faktorlarla bağlıdır:

Texnoloji faktorlar - Rəqəmsal ünsiyyətin artması: İnsanlar əksər hallarda sosial şəbəkələr, mesajlaşma proqramları və e-poct vasitəsilə ünsiyyət qurur. Bu zaman üzbəüz ünsiyyət bacarıqları zəifləyir. Mimika və intonasiya kimi qeyri-verbal elementlər itir. Gündəlik çoxlu mesaj, xəbər və bildiriş insanların diqqətini parçalayır. Dərin və mədəni daialoqlar üçün vaxt azalır. Virtual danışıq real söhbətləri əvəz edir, insanlar üz-üzə ünsiyyətdə əziyyət çəkməyə başlayırlar. Telefona, sosial şəbəkələrə bağlılıq real ailə ünsiyyətini belə azaldır. Sosial media asılılığı davranışı dəyişir, insanı real həyatdan uzaqlaşdırır. Bütün bunlara baxmayaraq, müsbət tərəfləri də var: məsafədən asılı olmayaraq yaxınlarla ünsiyyət, əlaqə saxlamaq daha rahat olur, məlumat mübadiləsi sürətlənir. İnsan öz problemlərini, maraqlarını, fikirlərini rahatlıqla paylaşa bilir. Maraqlara görə yeni dostlar, insanlar tapmaq asanlaşır, işgüzar əlaqələr genişlənir və s. Deməli sosial şəbəkədən doğru və ölçülü istifadə münasibətləri gücləndirə, həddindən artıq istifadə isə zəiflədə bilər.

Sosial faktorlar – Stress və sürətli həyat tərzi : iş, təhsil və gündəlik məsuliyyətlər insanların ünsiyyətə vaxt ayırmasını çətinləşdirir.

Psixoloji faktorlar – Onlayn fəaliyyətlərinin çoxluğundan bəzən insanlar ünsiyyət zamanı özlərini sərbəst ifadə edə bilmirlər Ənənəvi ünsiyyət qaydalarının zəifləməsi- salamlaşma, təşəkkür və üzr istəmə kimi nəzakət qaydaları bəzi yerlərdə itir, insanlar arasında səmimi ünsiyyət zəifləyir. Bu da qarşılıqlı hörmət və anlayışın azalmasına səbəb olur. Sivilizasiya tempi bizi ünsiyyətdən uzaqlaşdırır, biz insandan deyil, internetdən, süni intellektdən məlumat alırıq.

Hər bir xalqın mədəniyyətini və mənəviyyatını onun ünsiyyət tərzi əks etdirir. Bizim Azərbaycanlı olaraq milli kimliyimizi və mədəni irsimizi qoruyan ünsiyyət tərzimiz vardır. Böyüklərə “siz”lə müraciət etmək; yaşlı adama nəvaziş və hörmət göstərmək, əhvalını soruşmaq, kiçiyin böyüyə salam verməsi (böyüklərlə davranış qaydalarının ciddi qorunması); kiçiyə qayğı; salamlaşarkən hal-əhval tutmaq; qapını döyüb içəri girmək; içəri daxil olanın ayağına durmaq; əl sıxmaq;

səmimiyyət, insanlara ünsiyyətdə açıq ürəklə yanaşma; mehribanlıq; cəmiyyətdə başqasının haqqına girməmək, başqasını alçaltmamaq; qonaqpərvərlik, dostluq münasibətlərinə önəm vermək; ailəyə bağlılıq və s. ünsiyyət mədəniyyətimizin əsas xüsusiyyətləridir. Milli dəyərlərimizə uyğun ünsiyyət mədəniyyəti xalqımızın xarakterini göstərən ən mühüm amillərdəndir.

Müasir dövrdə insan həyatının ritmi, sosial münasibətlər və informasiya axınının sürəti və s. kimi proseslər mənəvi dəyərlərə də ciddi təsir göstərir. Əsrlər boyu formalaşmış ənənələr və davranış normaları yeni həyat tərzi ilə üz-üzə qalır və nəticədə mənəviyyat sahəsində dəyişikliklər qaçılmaz olur. İlk növbədə, qloballaşma insanların dünya görüşünü genişləndirir, lakin eyni zamanda milli-mənəvi dəyərləri zəiflətmə riskini də yaradır. Sosial şəbəkələrdə yayılan kütləvi mədəniyyət bəzən gənclərin düşüncə tərzini yönləndirir, onların davranış, geyim, danışıq və münasibət modelinə təsir göstərir. Bu prosesdə ənənəvi ailə bağları, böyüyə hörmət, ədəb-ərkan kimi dəyərlər müəyyən dərəcədə arxa plana keçir. Indi gənclər şəxsi azadlıq və öz seçimlərini , istədikləri kimi yaşamağı önə çəkirlər. İnternet və sosial media vasitəsilə fərqli mədəniyyətlərə çıxış çox asanlaşıb. Bu da gənclərin daha müasir və fərqli həyat tərzlərinə maraq göstərməsinə səbəb olur. Ailə üzvləri, xüsusilə valideynlər ilə az vaxt keçirdiklərinə görə ənənəvi davranış qaydalarından uzaqlaşır, dəyərləri tam dərk etmirlər, onları fərqli şəkildə yaşayırlar. Onlar bəzən yerli ənənələrdən çox, qlobal trendlərə üstünlük verirlər. Düzdür, bütün gənclər ənənələrə tamamilə əməl etmirlər demək də doğru deyil, sadəcə əksəriyyətində onların ifadə forması dəyişib. Təbii ki, onlar yeniliyə daha açıq olurlar, yeni ideyaları daha tez qəbul edirlər və köhnə qaydaları sorğulayırlar. Bundan əlavə, həyatın sürətli tempi də rol oynayır. Təhsil, iş və şəxsi inkişaf kimi məsələlər gəncləri daha praktik və çevik olmağa vadar edir, bu da dəyişikliklərə uyğunlaşmanı artırır.

İnsanlar daha çox virtual ünsiyyətə üstünlük verdikcə real münasibətlər, üzbəüz ünsiyyət zəifləyir, empatiya və emosional yaxınlıq hissi azalır, ənənəvi davranış formaları dəyişir. Halbuki mənəvi dəyərlərin əsas mahiyyəti məhz insanın insana olan münasibətində, anlayışında və hörmətindədir. Bu dəyərləri qoruyub yeni şəraitə uyğun şəkildə transformasiya etmək lazımdır, bu insanların öz əlindədir. Bununla belə, dəyişən şərait yeni mənəvi dəyərlərin də formalaşmasına səbəb olur. İnsan haqları, gender bərabərliyi, sosial ədalət, ekoloji məsuliyyət kimi anlayışlar bu gün mənəviyyatın müasir istiqamətlərini müəyyənləşdirir. Bu da göstərir ki, mənəviyyat dəyişsə də, mahiyyətcə daha geniş və daha qlobal baxışa doğru inkişaf edir. Beləliklə, müasir dövrdə mənəvi dəyərlərin dəyişməsi həm müsbət, həm də çətinlik yaradan prosesdir. Əsas məsələ bu dəyişiklikləri düzgün yönləndirmək, milli – mənəvi köklərimizi qorumaq və onları müasir dünyanın tələblərinə uyğun şəkildə yaşatmaqdır. Bir sözlə, yeni ümumbəşəri mədəniyyət milli mədəniyyətlərin fövqündə deyil, onlarla sintez halında formalaşmalıdır. Milli keyfiyyətlər milləti yaşadan, onu inkişaf etdirən keyfiyyətlərdir. Mənəvi dəyərlərin güclü olduğu cəmiyyət isə hər

zaman daha sağlam, daha davamlı və daha inkişaf etmiş olur. Beləliklə, ünsiyyət mədəniyyəti yalnız nitq və davranış bacarığı deyil, həm də milli kimliyimizin ifadə formasıdır. Milli dəyərlərimizi ünsiyyətdə yaşatmaq həm mədəni irsimizə sahib çıxmaq, həm də cəmiyyətin mənəvi sağlamlığını qorumaq deməkdir.

Ünsiyyət mədəniyyətinin insan həyatında rolunu aşağıdakı istiqamətlərdə müəyyənləşdirmək olar:

1.Şəxsi inkişafda rolu

Ünsiyyət mədəniyyəti insanın özünümüdafiə bacarığını artırır. Düzgün danışıq, səmimi münasibət və empatiya şəxsin hörmətini və nüfuzunu möhkəmləndirir. Konfliktlərin qarşısını almaqda və emosiyaların idarəsində mühüm rol oynayır.

2. Sosial münasibətlərdə rolu

İnsanlar arasında qarşılıqlı etimadın formalaşmasına kömək edir. Müxtəlif mədəniyyətlər və millətlər arasında anlaşmanı, ailə, dostluq və işgüzar münasibətlərin möhkəmlənməsini təmin edir.

3.Təhsil və peşəkar həyatda rolu

Müəllim və tələbə münasibətlərində ünsiyyət mədəniyyəti səmərəliliyi artırır, bu münasibət sadəcə bilik ötürülməsi deyil, həm də qarşılıqlı hörmət, anlayış və əməkdaşlıq üzərində qurulan pedaqoji prosesdir. Peşəkar həyatda yüksək ünsiyyət mədəniyyəti – hörmət, empatiya və etik davranış insanın həm karyerasını, həm də iş mühitindəki mövqeyini müəyyən edən əsas amillərdəndir.

4. Rəqəmsal dövrdə rolu

Sosial şəbəkələrdə və onlayn platformalarda ünsiyyət mədəniyyəti həm şəxsi reputasiyanı, həm də ictimai davranışları müəyyən edir. İnternetdə etik davranış qaydalarına əməl etmək, aqressivlik və nifrət nitqindən uzaq durmaq cəmiyyətin sağlam informasiya mühitini qoruyur.

Nəticə olaraq , ünsiyyət mədəniyyəti təkcə şəxsi keyfiyyət deyil, həm də sosial bacarıq kimi çıxış edir. O, fərdlərin inkişafını, cəmiyyətin harmoniya və əməkdaşlıq şəraitində yaşamasını təmin edən əsas şərtlərdən biridir.

**Ədəbiyyat siyahısı**

1. Quliyev Ə. Fikri aydın çatdıraq. Bakı, 2003, 128 s.
2. Məmmədov F. Kulturologiya və insan inkişafı. Bakı, OL NPKT, 2019, 344 s.
3. Məmmədli N. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya (dərslik). Bakı, Elm və təhsil, 2021, 512 s.
4. Nəsirəddin Tusi. Əxlaqi – Nasiri. Bakı, Lider nəşriyyatı, 2005, 280 s.
5. Бодалев А.А. Личность и общение. Москва, Международная педагогическая академия. 328 стр.
6. Макаренко А.С. Воспитание и развитие личности в коллективе. Москва, Атрита, 2022, 228 стр.

## XÜLASƏ
## Milli ünsiyyət tərzimiz

Açar sözlər: mədəniyyət, ünsiyyət mədəniyyəti, empatiya, ünsiyyət tərzi, insan münasibətləri, mənəviyyat, mənəvi dəyərlər, ünsiyyət etikası

Məqalədə ünsiyyət mədəniyyəti, mədəniyyət anlayışı, mədəni dəyərlər sistemi, insan münasibətləri və milli ünsiyyət tərzimizdən bəhs edilir. Tədqiqatın məqsədi ünsiyyət mədəniyyətinin nəzəri və praktik əsaslarını öyrənmək, onun şəxsi inkişafda, ailə-dostluq, təhsil və peşəkar münasibətlərdə, cəmiyyətin sosial-mədəni həyatında oynadığı rolu müəyyənləşdirməkdir. Məqalədə ünsiyyət mədəniyyətinin əsas funksiyaları göstərilmiş, onları formalaşdırmaq və inkişaf etdirməyin yolları izah edilmişdir. Müasir dövrdə insan yalnız öz biliyi və bacarığı ilə deyil, həm də ünsiyyət qurmaq bacarığı ilə dəyərləndirilir. Mədəni danışıq və davranış insanın tərbiyəsini və səviyyəsini göstərir. Ünsiyyət mədəniyyəti xalqın adət-ənənələrini və mənəvi dəyərlərini yaşadır. Məqalədə mədəni insan formulu, mənəviyyat, xarakter, empatiya haqqında söhbət açılmış, ünsiyyət qurulmasında yaranan çətinliklərin səbəbləri və həlli yolları göstərilmişdir. Məqalə həm gənclər, həm də ümumilikdə cəmiyyət üçün maarifləndirici və istiqamətləndirici əhəmiyyət daşıyır. Ünsiyyət tərzimiz xalqımızın mədəniyyətinin bir hissəsidir, onun gələcək nəsillərə ötürülməsi vacibdir.


**Лятафет Алиева**


## НАЦИОНАЛЬНЫЙ СТИЛЬ ОБЩЕНИЯ
## Резюме

**Ключевые слова: культура, культура общения, эмпатия, стиль общения, человеческие отношения, духовность, духовные ценности, этика отношения**

В статье речь идет о культуре общения, понятии "культура", системе культурных ценностей, человеческих отношениях и национальном стиле общения азербайджанского народа. Цель исследования - изучение теоретических и практических основ культуры общения, определение его роли в личностном развитии, в семейно-дружеских, образовательно-профессиональных отношениях, в социально-культурной жизни общества. В статье рассматриваются основные функции культуры общения, пути их формирования и развития. Отмечается, что в настоящее время человека ценят не только по его знаниям, навыкам. но и по умению строить отношения. Культурная речь и культурное поведение служат показателями воспитания и уровня человека. Культура общения сохраняет обычаи, традиции и культурные ценности народа. В статье также говорится о формуле человека, духовности,

характере, эмпатии; выявляются причины трудностей, возникающих при построении общения, и указываются пути их решения. Статья имеет просветительскую и направляющую значимость как для молодежи, так и для всего общества в целом. Национальный стиль общения - составная часть культуры, и передача ее последующим поколениям весьма важна.

**Latafat Aliyeva**

**NATIONAL STYLE OF COMMUNICATION**
**Summary**

**Keywords: culture, communication culture, empathy, communication style, human relations, spirituality, spiritual values, ethics of relationships**

The article deals with culture of communication, the concept of "culture", the system of cultural values, human relations and the national style of communication of the Azerbaijani people. The purpose of the research is to study the theoretical and practical foundations of communication culture, to determine its role in personal development, in family and friendly, educational and professional relations, and in he socio-cultural life of society.The article examines the key functions of communication culture, their formation and development. It is noted that today, people are valued not only for their knowledge and skills but also for their ability to build relationships. Cultural speech and behavior are indicators of a person's upbringing and level of education. Cultural communication preserves the customs, traditions, and cultural values of the people.The article also discusses the human formula, spirituality, character, and empathy; it identifies the causes of difficulties that arise when building communication and suggests solutions. This article has educational and guiding value for both young people and society as a whole. National style of communication is an integral part of culture, and passing it on to future generations is essential.

**Rəyçi: prof. İsmayıl Kazımov**